# “General Səməd bəy Mehmandarovun 160 illik yubileyinin keçirilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin Sərəncamının icrası barədə Azərbaycan Respublikası təhsil nazirinin əmri

“General Səməd bəy Mehmandarovun 160 illik yubileyinin keçirilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 29 sentyabr 2015-ci il tarixli, 1428 nömrəli Sərəncamının icrasını təmin etmək məqsədilə, “Azərbaycan Respublikası Təhsil Nazirliyi haqqında Əsasnamə”nin 13.5-ci bəndini rəhbər tutaraq və gənc nəslin azərbaycançılıq məfkurəsinə uyğun, vətənə məhəbbət ruhunda tərbiyəsində əhəmiyyətini nəzərə alaraq

**ƏMR EDİRƏM:**

1.“General Səməd bəy Mehmandarovun 160 illik yubileyinin keçirilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 29 sentyabr 2015-ci il tarixli, 1428 nömrəli Sərəncamının icrası ilə əlaqədar Azərbaycan Respublikası Təhsil Nazirliyinin Tədbirlər Planı təsdiq edilsin (əlavə olunur).

2. Naxçıvan MR Təhsil Nazirliyi, Bakı Şəhəri üzrə Təhsil İdarəsi, Gəncə Şəhər Təhsil İdarəsi, rayon (şəhər) təhsil şöbələri, ali, orta ixtisas və ümumi təhsil müəssisələrinin rəhbərləri:

2.1. General Səməd bəy Mehmandarovun 160 illik yubileyi ilə bağlı təsdiq olunmuş Tədbirlər Planının yerinə yetirilməsini təmin etsinlər.

2.2. Görülmüş işlər barədə 29 dekabr 2015-ci il tarixinədək Təhsil Nazirliyinə hesabat təqdim etsinlər.

3. İnformasiya şöbəsi (E.Əliyev) əmrin əlavəsi ilə birlikdə “Azərbaycan müəllimi” qəzetində dərc olunmasını, əmr və Tədbirlər Planının çoxaldılıb yerlərə göndərilməsini və Nazirliyin internet səhifəsində yerləşdirilməsini təmin etsin.

4. Əmrin icrasına nəzarət İnformasiya şöbəsinə (E.Əliyev) həvalə olunsun.

Əsas: Azərbaycan Respublikası Prezidentinin 29 sentyabr 2015-ci il tarixli, 1428 nömrəli Sərəncamı.

***Mikayıl CABBAROV,***

***Azərbaycan Respublikasının təhsil naziri***

***20 oktyabr 2015-ci il***

***№1012***

---

**Əlavə:**

“General Səməd bəy Mehmandarovun 160 illik yubileyinin keçirilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 29 sentyabr 2015-ci il tarixli, 1428 nömrəli Sərəncamının icrası ilə əlaqədar Azərbaycan Respublikası Təhsil Nazirliyinin Tədbirlər Planı